# Ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə aparılır

**Bu gün müstəqil Azərbaycanın həyatın ən müxtəlif sahələrində əldə etdiyi nailiyyətlər həqiqətən heyrətamizdir. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin milli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurlu davamı müstəqillik yolunda inamla addımlayan Azərbaycanın bu zəfərləri üçün möhkəm zəmin yaratmışdır. Praqmatik, müasir dünya görüşlü ölkə başçısı dünyadakı mütərəqqi inkişaf meyllərini düzgün müəyyənləşdirərək Azərbaycan gerçəkliyində öz əksini tapması üçün səylərini əsirgəmir. İlham Əliyev Ulu öndərin dövlətçilik, azərbaycançılıq konsepsiyasından bəhrələnərək ölkənin inkişaf tendensiyasına yeni, müasir dövrün tələblərinə uyğun çalarlar gətirmişdir.**

Bu gün Azərbaycan dünya birliyində öz layiqli yerini tutmuş, yerləşdiyi bölgədə söz sahibi olan bir ölkəyə çevrilmişdir. Bütün bunlarla yanaşı, ölkəmiz həm də qloballaşan dünyanın bir hissəsidir. Azərbaycanın 44 günlük Vətən müharibəsindəki uğurları, qələbəsi bütün dünyanı valeh etmişdir. Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılmışdır. Bu gün hətta super dövlətlər Azərbaycanın Şuşa əməliyyatının mahiyyətindən danışır və bu dövlətin hərbi nailiyyətini müzakirə edirlər. Azərbaycan özünün hərb tarixinə öz möhürünü vurmuşur və ən nəhəng dövlətlər içərisində özünün layiq olduğu yeri tutmuşdur.

İqtisadi və siyasi islahatların aparıldığı bir dövrdə dövlət və yerli özünüidarəetmə orqanlarında korrupsiyanın geniş vüsət alması, onun ictimai-siyasi həyatın bütün sahələrinə sirayət etməsi cəmiyyətin "xərçəng" xəstəliyi hesab edilən bu hala qarşı mübarizənin gücləndirilməsi sahəsində siyasi və hüquqi tədbirlər proqramının işlənib hazırlanması zəruri olmuşdur.

Korrupsiya sosial hadisədir. O, şəxsi mənafeyi əsas tutaraq varlanmaq məqsədilə vəzifəli şəxslər tərəfindən qulluq mövqeyindən sui-istifadə etməklə xarakterizə olunan və bir çox hallarda isə az qala onların həyat tərzinə çevrilən, nəticə etibarilə idarəetmə sistemini iflic vəziyyətə salan, ictimai həyatın ən eybəcər formasıdır.

Ulu öndər qeyd edirdi ki, rüşvətxorluq cəmiyyəti içindən yeyir, bu hallara qarşı mübarizə hamının işidir. Son illər bu sahələrdə aparılan ardıcıl islahatlar və əldə olunan müsbət nəticələr dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşdırılmasında mühüm mərhələ olmaqla, iqtisadi potensialın artmasında böyük rol oynamış, ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirmiş, əhalinin maddi rifahının yaxşılaşması üçün əsaslı zəmin yaratmışdır.

Azərbaycan cəmiyyətində də korrupsiya deyiləndə ilk növbədə bu ifadə rüşvət almaq, rüşvət vermək anlamına gəlir. Əslində bu belə deyildir. "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 9-cu maddəsində korrupsiyanın nədən ibarət olmasının açıqlanması verilmişdir. Qısaca da olsa onlardan bir neçəsini qeyd etmək istərdim. Korrupsiya dedikdə vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsi müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etmə, əldə etmə və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı vədi və ya təklifi qəbul etmə və sair hərəkətlər başa düşülür.

Korrupsiya ilə bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsində korrupsiya cinayətlərinə böyük fəsil ayrılmışdır və bu əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Korrupsiyanın çiçəklənməsinə şərait yaradan amillərdən biri də qohumluq əlaqələridir. Vəzifəli şəxslərin yaxın qohumları, seçkili vəzifələr və qanunvericiliklə nəzərdə tutulan digər hallar istisna olmaqla, bilavasitə onun tabeliyində olan heç bir vəzifə tuta bilməzlər. Belə bir müddəa "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 7-ci maddəsində öz əksini tapmışdır.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 8.2-ci maddəsinə əsasən vəzifəli şəxs xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda xidməti vəzifələrinin qərəzsiz icrasına təsir etməmək şərtilə kiçik hədiyyələrin qəbul edilməsi və sadə qonaqpərvərlikdən istifadə hallarına şamil olunmur.

Azərbaycan Respublikasının qanunvericiliyi vəzifəli şəxsə xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olan bir və ya bir neçə hədiyyəni qəbul edə bilməz. Həmin məbləğdən yuxarı olan hədiyyələr şəxsin xidməti vəzifəsini həyata keçirdiyi dövlət orqanına və ya yerli özünüidarəetmə orqanına məxsus hesab edilir.

Ümummilli liderimizin korrupsiya ilə bağlı bir sıra müdrik kəlamları var. Onlardan biri də odur ki, rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir. Bu sözlər onu deməyə əsas verir ki, vəzifəli şəxsin korrupsiya əməlləri nəticəsində qanunsuz əldə edilmiş əmlakın və qanunsuz əldə edilmiş imtiyazların və ya güzəştlərin dəyəri dövlətə çatmalıdır.

Vəzifəli şəxslər tərəfindən qanunsuz əldə edilmiş əmlakın və qanunsuz əldə edilmiş imtiyazların və ya güzəştlərin dəyərinin könüllü olaraq dövlətin nəfinə ödənilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9-cu maddəsinə müvafiq olaraq cəzanı yüngülləşdirən hallardan hesab edilir.

Vəzifəli şəxslər qanunsuz əldə edilmiş əmlakı, habelə qanunsuz əldə edilmiş imtiyaz və ya güzəştlərin dəyərini könüllü olaraq ödəməkdən imtina edərlərsə, onun dəyəri müvafiq dövlət orqanlarının iddiası əsasında məhkəmə tərəfindən dövlətin nəfinə ödənilir.

Qanunvericiliklə dövlətin nəfinə ödəmə mülki qaydada müvafiq dövlət orqanlarının iddiası əsasında və ya cinayət mühakimə icraatı qaydasında məhkəmə tərəfindən müsadirə yolu ilə həyata keçirilir.

Korrupsiyaya qarşı mübarizə aparmalı olan orqanlar elə fikirləşməməlidirlər ki, əgər korrupsiyadan əldə edilən gəlir respublikadan çıxarılmışsa, onun qaytarılmasında kömək göstərən qüvvə yoxdur. Cəmiyyətimizdə elə fikir formalaşmışdır ki, məsələn, İsveçrə banklarında saxlanılan pul vəsaitləri nəinki geri qaytarılmır, hətta həmin vəsaitlərin bank sirri olduqca ciddi qorunur. Qeyd etmək lazımdır ki, pul vəsaitlərinin cinayət yolu ilə əldə edilməsi barədə məhkəmələrin əsaslandırılmış qanuni qərarları olduqda hətta İsveçrə hökuməti özü həmin vəsaitlərin qaytarılması istiqamətində təşəbbüs göstərir.

Bu fikrin davamı olaraq, ölkədə korrupsiya ilə mübarizədə Azərbaycanın hərtərəfli inkişafı üçün vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi başlıca şərt olmasını qeyd etmək yerinə düşərdi.

Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlət başçısı qeyd etmişdir ki, "korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsi gözəl nəticələrini verir. Bu siyasət davam etdiriləcəkdir. Bu, bizim şüurlu seçimimizdir və görülən tədbirlər xalq tərəfindən yüksək qiymətləndirilir.". Daha sonra o, qeyd etmişdir ki, "Mən həmişə insanlarla təmasda olan zaman müraciət edirəm ki, xoşagəlməz hallar haqqında məlumatlar versinlər. Azərbaycanda ümumiyyətlə, bütün sahələrdə ictimai nəzarət daha da güclü olmalıdır. İslahatların dərinləşməsi prosesi getməlidir. Bu da antikorrupsiya tədbirlərinin arasında mühüm əhəmiyyətə malik olan sahədir. Sağlam rəqabət təmin edilməlidir. Qeyri-sağlam rəqabət aradan qaldırılmalıdır. Bütün sahələrdə şəffaflıq təmin edilməlidir.

Aprelin 16-da Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında korrupsiyaya qarşı mübarizə ilə bağlı cənab İ. Əliyev bir daha vurğuladı ki, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Burada həm inzibati tədbirlər, həm də cəza tədbirləri gücləndirilməlidir. Eyni zamanda, sistem xarakterli, institusional xarakter daşıyan islahatlar daha da sürətlə aparılmalıdır. Mübarizə bir gün, bir dəqiqə səngiməməlidir. Bu məsələ daim diqqət mərkəzində olmalıdır. Nəhayət, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda ölkə başçısı bir daha vurğulamışdır ki, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə gücləndirilməlidir. Hesab edirəm ki, biz bu işlərdə istədiyimizə nail ola bilməmişik. Baxmayaraq ki, mübarizə gedir və gedəcəkdir. Ancaq əfsuslar olsun ki, bu mübarizə lazımi səviyyədə deyildir. Korrupsiya böyük bəladır. Biz doğrudan da, inkişaf etmiş ölkəyə çevrilmək istəyiriksə korrupsiyanı aradan götürməliyik. Bunu etmək üçün bir neçə amil lazımdır və onların hamısı Azərbaycanda vardır. Güclü siyasi iradə və beynəlxalq təcrübə. Biz bu təcrübəni öyrənirik, cəza tədbirləri, sistem xarakterli islahatlar mütləq olmalıdır və olacaqdır. Biz bu məsələyə kompleks şəkildə yanaşırıq, müəyyən işlər görülübdür. Ancaq demək istəyirəm ki, bu işlər məni qane etmir. Korrupsiyaya qarşı mübarizə daha da ciddi olmalıdır, bunun daha da ciddi nəticələri olmalıdır. Ancaq bəzi hallarda korrupsiya xəstəliyinə yoluxmuş insanlar həbs edildikdə onların onlarla müdafiəçisi meydana çıxır. Müdafiə edirlər, komitələr yaradırlar, müraciətlər edirlər. Hər kəs qanun qarşısında cavab verməlidir və qanun qarşısında hər kəs eyni hüquqa malikdir. Ona görə bütün orqanlar, hüquq mühafizə orqanları daha da ciddi mübarizə aparmalıdırlar. Eyni zamanda, sistem xarakterli islahatlar da daha ciddi şəkildə aparılmalıdır.

Bəli, xalq öz liderini dəstəkləyir, onun bu nəcib təşəbbüsünə qoşulur və ümidvarıq ki, bu mübarizə öz müsbət nəticəsini verəcəkdir.

Yuxarıda qeyd edilənlərdən də görünür ki, ölkə başçısı korrupsiyaya qarşı mübarizəni özünün prioritet vəzifələrindən biri hesab edir və bu məsələ daim onun nəzarətindədir. Belə ki, Azərbaycan Respublikası Prezidenti 2022-ci ilin 4 aprel tarixində "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022?2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında tarixi Sərəncam imzalamışdır. Həmin Sərəncamla Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022?2026-cı illər üçün Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Fəaliyyət Planının əsas və vacib müddəalarından biri odur ki, ümumi inflyasiya və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu 2004-cü il 13 yanvar tarixdə qəbul olunmasına baxmayaraq Qanunun 5.1-ci maddəsinin tələblərinə bu günə qədər əməl olunmayıb. Belə ki, həmin maddəyə görə vəzifəli şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada mənbəyini, növünü və məbləğini göstərməklə hər il öz gəlirləri barədə məlumatları təqdim etməlidirlər: Artıq Milli Fəaliyyət Planı maddənin bu tələbini vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili, qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi ilə bağlı təkliflər verilməsi redaksiyasında nəzərdə tutmuş və onun icrası Nazirlər Kabinetinə tapşırılmışdır. Digər icraçılar isə Baş Prokurorluq, və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadır. Növbəti tədbirlərdən biri isə vəzifəli şəxslər tərəfindən təqdim edilən maliyyə xarakterli məlumatlar haqqında bəyannamədəki məlumatların müvafiq məlumat bazalarındakı məlumatlarla uyğunluğunun yoxlanılmasına imkan verən elektron informasiya mübadiləsinin formalaşdırılması ilə bağlı təkliflərin təqdim edilməsidir.

Planda bir çox məsələlərin həlli nəzərdə tutulmuşdur. Korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə Milli Fəaliyyət Planının ana xəttini təşkil edir. Plana əsasən dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlim kurslarının təşkili, hərbi qulluqçular üçün korrupsiyaya qarşı mübarizə sahəsində tədris kurslarının, treninqlərin və seminarların təşkili nəzərdə tutulur.

***Orxan MƏMMƏDOV***
***Qubadlı Hərbi prokurorunun böyük köməkçisi, ədliyyə baş leytenantı***